# Yaddaşlara əbədi olaraq yazılmış qürur dolu günlər

**Yaşadığımız hər gün tarixin bir səhifəsidir. Ömrümüz boyu gördüyümüz və şahidi olduğumuz hadisələrin hərəsi bir cür yaddaşımıza həkk olunur. Elə hadisələr var ki, illər ötsə də, heç vaxt bizi tərk etmir. 2020-ci ilin sentyabr ayının ılıq payız günlərinin birində başlanan İkinci Qarabağ müharibəsində də yaddaqalan qürur dolu hadisələrə şahidlik etdik.**

Yaxşı xatırlayırıq ki, hələ müharibə başlamazdan əvvəl erməni qəsbkarları yerə-göyə sığmayaraq silahları, zirehli texnikaları ilə bir öyünürdülər ki, gəl görəsən. Sinələrinə döyüb lovğalana-lovğalana xəyallar qurub deyirdilər ki, əgər Qarabağ uğrunda döyüşlər başlayarsa, Azərbaycanın yeni ərazilərini işğal edəcəyik, şəhər və kəndlərini viran qoyacağıq.

Bu sözləri deyərkən daşnaklar özlərindən daha çox havadarlarına arxalanırdılar. Amma unudurdular ki, özgəyə güvənənlər axırda şamsız və işıqsız gecələməli olurlar. Müharibənin elə ilk günlərindən Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri işğalçılara məğlubiyyətin acısını dadızdırdılar. Kiməsə güvənən ermənilər döyüş meydanlarında köməksiz qalıb məğlub oldular. Fransadan və başqa ölkələrdən mülki və hərbi təyyarələrdə Ermənistana daşıdıqları çeşid-çeşid silahlar da heç nəyə yaramadı. Bütün bunları baş nazir Paşinyan müsahibə verəndə utanmaz-utanmaz etiraf etdi də. Sən demə, fransızlar da, digərləri də köhnə, kif atmış silahlarını Nikola sırıyıb yaxşıca başını aldatmışdılar.

27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində Qarabağ uğrunda qanlı döyüşlər yenidən alovlandı. Qəsbkarlar dedikləri kimi, yeni ərazilərimizi işğal etmək üçün ordumuzun mövqeləri üzərinə qəflətən hücuma keçdilər. Yağılar xəyal qurub zənn etdilər ki, qəfil hücumları ilə mövqelərimizi qısa müddət ərzində aşa biləcəklər. Amma döyüşlər ermənilərin fikirləşdikləri kimi olmadı, zaman yağılara başqa reallıqları yaşatdı. Döyüşlərin elə ilk dəqiqələrindən işğalçılar cəsur, qəhrəman əsgərlərimizin güclü müqaviməti ilə qarşılaşdılar. Necə deyərlər, daş qayaya rast gəldi. Ermənilərin hücumlarının qarşısı qətiyyətlə alındı, burunları yaxşıca ovuldu. Yeni ərazilərimizi ələ keçirmək iştahasında olan düşmən bir addım da olsun irəli gedə bilmədi.

günlər, qürurverici anlar əbədi olaraq yaddaşlara yazıldı.

Yurd yerlərimiz azad olunduqca sanki göylərdə narahat dolaşan şəhid ruhları da döyüşçüləri intiqama, qisasa çağırırdı. Əsgərlərimiz savaşlara da nifrət və qisas hissi ilə atılırdılar. Şəhidlərin intiqama çağıran sədalarına, hayqırtılarına qəhrəmanlıqları ilə, igidlikləri ilə cavab verirdilər. Bu çağırış, bu səda onların qollarına, ürəklərinə güc-qüvvət verirdi, yeni qələbələrə, yeni zəfərlərə ruhlandırırdı.

O gərgin və keşməkeşli günlərdə bəlkə də bəziləri nə vaxtsa ermənilərdən şəhidlərin intiqamının alınacağını, torpaqlarımızın işğaldan azad ediləcəyini gözləmirdi. Çünki işğalçılar öz ətraflarında "məğlubedilməz" olduqları haqqında mif yaratmış, əfsanələr uydurmuşdular. Düzdür, igidlərimiz bu mifi 2016-cı ilin Aprel döyüşlərində darmadağın etmişdilər. Hünər və qəhrəmanlıqları ilə göstərmişdilər ki, Azərbaycan Ordusu daha güclü, daha qüdrətlidir. İkinci Qarabağ müharibəsində də dünya gücümüzü, qüdrətimizi bir daha gördü. Müharibə başlanan ilk günlərdən Silahlı Qüvvələrimizin şəxsi heyəti erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurdu. Nə az, nə çox, düz qırx dörd gün zəfər qoxulu bu zərbələrin ardı-arası kəsilmədi. Döyüşçülərimiz ayaq saxlamadı, avtomatlar, pulemyotlar sinədən enmədi, barmaqlar tətikdən çəkilmədi. Tanklar, toplar gurladıqca, gurladı.

İkinci Qarabağ müharibəsi davam edə-edə həyatımızdakı bir çox reallıqları da dəyişirdi. Bu reallıqlar dilimizə yeni ifadələr, təzə sözlər də gətirirdi. Azərbaycan Ordusu uğurlu əks-həmlə əməliyyatlarını davam etdirdikcə şəhər və kəndlərimiz bir-birinin ardınca erməni işğalçılarından azad olunurdu. Bu yaşayış məntəqələrinin sakinlərinin illərdən bəri kədərli olan üzləri gülürdü, ürəklərinə sevinc ələnirdi. Azərbaycan Ordusunun uğurları, zəfərləri sevinclə göz yaşını bir-birinə qovuşdurmuşdu.

İyirmi səkkiz ildən çox torpaqlarının həsrətini çəkən insanların qürurunu, fərəhini sözə çevirib ifadə etmək də bir xoşbəxtlik idi. Düzdür, bu sevincdən söz də titrəyib nə dilə, nə də qələmə yatırdı. Çünki torpaq həsrətinin odu uzun illər için-için bu insanların ürəyini yandırmış, könüllərini, qəlblərini qubarlandırmışdı. Artıq Azərbaycan Ordusunun zəfərləri bu qubarı, bu kədəri, bu həsrəti ürəklərdən birdəfəlik silmişdi. Torpaqlarımız işğaldan azad edil-



Əks-həmlə əməliyyatları başlanan kimi ordumuzun cəsur zabit və əsgərləri düşmənin həm canlı qüvvəsinə, həm də zirehli texnikalarına sarsıdıcı zərbələr endirdilər. Savaş davam etdikcə düşmənin hərbçilərimiz tərəfindən sərrast atəşlə vurulan tankları, artilleriya qurğuları tüstüləyə-tüstüləyə döyüş gedən ərazilərdə qaldı. O tankları, o topları görəndə ermənilərin yeni ərazilərimizi işğal edəcəkləri ilə öyündükləri və xəyal qurduqları günlər yadımıza düşürdü. İşğalçıların arzuları da elə bu zirehli maşınların içində yanıb kül oldu. İndi nə o sözü deyən ermənilər var, nə onların tankları, topları, nə də xəyallara söykənən arzuları. Özləri kimi arzu və istəkləri də məhv olub tarixin arxivinə yuvarlanırdı.

44 günlük Vətən müharibəsinin elə ilk dəqiqələrindən ordumuzun qazandığı uğurlar, zəfərlər hamımızı sevindirdi. Qələbə xəbərlərindən ürəyimiz açıldı, qəlbimizə fərəh doldu. Həmin çağlarda biz həyatımızın ən xoş anlarını, ən xoş günlərini yaşayırdıq. Köksümüzə sığır açan sevincimiz yerə-göyə sığmırdı. Uzun illər erməni işğalında qalmış şəhər və kəndlərimiz gözlərimiz qarşısında düşmənlərdən azad olunurdu. Bütün bunlar çox qürurverici və fərəhli anlar idi. Sevinclə dolub-daşan

dikcə qaçqın, köçkünlərin həsrət odunun üstünə su çilənirdi. Könüllər açılır, qəlblərdən qubar çəkilir, ürəklərə sevinc toxumları əkilirdi.

Sevinc dolu günlərimizdə qaçqınlardan sevinə-sevinə dedikləri bu sözləri tez-tez eşidirdik: "Torpaqlarımız işğaldan azad edilib, artıq biz qaçqın deyilik!" Bəli artıq ordumuz ürəkaçan qələbələri ilə intizara, həsrətə, əzablar içində keçən qaçqınlıq həyatının nisgilinə, həsrətinə son qoymuşdu. Məcburi köçkünlərin sevinci yerə-göyə sığmırdı. Hər kəs doğma ocaqlarına qayıdacağı günü səbirsizliklə gözləyirdi. Uğurla, zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi köçkünlüyü də tarixə qovuşdurdu.

İkinci Qarabağ müharibəsinin zəfərlə başa çatdığı günlərdən 4 ildən çox vaxt keçib. Artıq uzun müddət doğma ocaqlarının həsrətini çəkən insanlar erməni işğalçılarına lənətlər yağdıra-yağdıra, Azərbaycan Ordusuna sevgilər bəsləyə-bəsləyə doğma ocaqlarına qayıdırlar. Xalqımız insanlara böyük fərəh gətirən bir-birinə bənzəməyən günlərin sevincini yaşayır. Belə xoş ovqat dolu günlərimiz davamlı olacaq, gözlərdən, ürəklərdən sevinc heç vaxt əskik olmayacaq!

***Vahid MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***